

İSLAM SADIQ

## DÖNMƏZ

Ürək var ki, qış kimidi,
İpək var ki, daş kimidi.
Ovcundakı quş kimidi,
Söz çıxdımı dildən, dönməz.

Qonub bircə gülə, sevir,
Qaş qaralıb, hələ sevir.
Ölmüş onu elə sevir,
Arım ölər, güldən dönməz.

Örtüb dağın çən başını,
Sürmələyib gün qaşını.
Yaxşı saxla sən daşını,
Daş çıxdımı əldən, dönməz.

## QALDIQ DALA

Durulduq su durulan tək,
Qaraldıq qaş qaralan tək.
Gün batanda saralan tək
Bala-bala solduq, bala.

Yığdıq dağın başına daş,
Gədiyinə, qaşına daş.
Bir ömrü də başına daş
Sala-sala saldıq yola.

Bir borc durur boynumuzda,
Borc üstdədi oynumuz da.
Əllərimiz qoynumuzda
Qala-qala qaldıq dala.

## ÇIXIB GEDİR

Gah boylanır duman altdan,
Gah boylanır güman altdan.
Gah gizlincə saman altdan
Axa-axa çıxıb gedir.

Gah marığa yata-yata,
Gah başımı qata-qata,
Məni oda tuta-tuta,
Yaxa-yaxa çıxıb gedir.

Özü yaxşı bilə-bilə,
Ötüb gedir gülə-gülə.
Sol gözüylə elə-belə
Baxa-baxa çıxıb gedir.

İslam Sadıq bilir niyə,
Arxasınca gəlir deyə,
Pilləleri əyə-əyə,
Yıxa-yıxa çıxıb gedir.

## QAYIDIRAM

Kim olursan ol, gəlmişəm,
Sağ getmişəm, sol gəlmişəm.
Yığa-yığa yol gəlmişəm,
Tökə-tökə qayıdıram.

Başım üstü bulud-bulud,
İçim dolu umud-umud.
Gəzdim dağı palıd-palıd,
Cökə-cökə qayıdıram.

Tutdum dağın gədiyində,
Əli qaldı ətəyimdə.
Bir namərdi yedəyimdə
Çəkə-çəkə qayıdıram.

Mən yazmışam, siz də pozun,
Bildiyiniz kimi yozun.
Addımlarım uzun-uzun,
Yekə-yekə, qayıdıram.

İslam, göz ol, göz oduma,
Söz qatmışam, söz oduma.
Bu yolları öz oduma
Bükə-bükə qayıdıram.

## LƏLƏK OLMAZ

Min cür dilək diləsə də,
Diləyindən dilək olmaz.
Quş uçurub tərlan deyər,
Tüləyindən tülək olmaz.

Yaxşı görür demə səni,
Oxşadır gör kimə səni?
Ha bələyər qəmə səni,
Bələyindən bələk olmaz.

Hardasa bir paxıl tutsan,
Nə yan, nə də yaxıl, tutsan.
Qabağına taxıl tutsan,
Küləyindən külək olmaz.

Nə ününü ün eləməz,
Nə gününü gün eləməz.
Un tökərsən, un ələməz,
Ələyindən ələk olmaz.

Bir haqsıza haqq versən də,
Az biləcək çox versən də.
Qılınc, qalxan, ox versən də,
Biləyindən bilək olmaz.

İslam Sadıq, qada tutsan,
Sən üzünü yada tutsan.
Lələk verər, oda tutsan,
Lələyindən lələk olmaz.

## BU DÜNYA BİR TAPMACADI

Bu yeməyi kim bişirir,
Nə bişirir qazan bilmir.
Bu qazdığı nə qəbirdi,
Kimə qazır, qazan bilmir.

Acı yanır, toxu yanmır,
Azı yanır, çoxu yanmır.
Yazdığını oxuyammır,
Niyə yazır, yazan bilmir.

Varaq üstə cumub pozur,
Təzə bir şey umub pozur.
Gözlərini yumub pozur,
Nəyi pozur, pozan bilmir.

Nişanlayıb, daşı, kolu,
Tanıyammır sağı, solu.
Çaşıb səmti, azıb yolu,
Hara gedir azan bilmir.

İki dağı bir haçadı,
Hər dərəsi bir bacadı.
Bu dünya bir tapmacadı,
Cavabını ozan bilmir.

## DUYAMMAZ

Ağzı daşa dirənib,
Tutar dağı, dərəni.
Aşar bəndi, bərəni,
Axar sular dayanmaz.

Gün batar, ay doğar,
Ulduz-ulduz göy doğar.
Bir işıq da çay doğar,
Dünya qara boyanmaz.

Ağlı, huşu cibində,
Qum sananar dibində.
Qulağının dibində
Zurna çalsan oyanmaz.

Quru adam, yaş adam,
Ağac adam, daş adam.
Daşlara qardaş adam,
Vallah məni duyammaz.

## DÜNƏNDƏN SABAHA

Bu yolun əvvəli hayandan gəlir,
Üzülüb dünənin qaranlığından.
Bu yolun sevinci duyandan gəlir,
Yuyunur sabahın aydınlığında.

Bir paxılın içi tökülüb qalıb,
Dünən duman çökmüş dərə kimidi.
Bu günsə zamanı dünəndən alıb,
Sabaha ötürən bərə kimidi.

Bu günün bir gözü sabaha baxır,
Bir gözü dünənin arxasındadı.
Bir əli dünənin çibindən çıxır,
Bir əli sabahın yaxasındadı.

Səssizlik içində batan qulaqlar
Şəklənib gecənin pıçıltısına.
Axşamdan yuxusu qaçan ocaqlar
Köklənib səhərin işıltısına.

Daş yuxa, daş çörək, bir də daş tabaq,
Tutulub açılmır səhərdən üzü.
Gecənin zülməti tökūb qaş-qabaq,
Güləcək üzünə səhər dan üzü.

## HƏR ÖMRÜN SONUNDA

İllər ötüb gedir düzülüb ay-ay,
Bir ayın yerinə başqa ay düşmür.
Yüz yerə bölünür bir ömür pay-pay,
Heç nədən, heç nədən ömrə pay düşmür.

Elə bil bir oxdu çıxıb yayından,
Günəş də torpağın yelinə uçur.
Kəsib gecələrin ömür payından,
Gündüzlər uzanır gündə bir puçur.

Çoxalır gedilən, azalır qalan,
Yollara bənzəyir ömür də bir az.
Bütün yollar bir gün qayıdar gedir,
Tək ömür yolunu qayıtmaq olmaz.

Neçə dəfə solur, açılır bir gül,
Quşlar yuvasını təzədən qurur.
İşə bax, hər yolun sonunda vergül,
Hər ömrün sonunda bir nöqtə durur.

Sirdaşını görüb, sirrini demir,
Oduna da açmır dərdini ocaq.
Günlər uzananda gödəlir ömür,
Günlər gödələndə uzanmır ancaq!

